# Azərbaycan Respublikasının Milli Bankı nəzdində Azərbaycan İpoteka Fondu haqqında Əsasnamənin təsdiq edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasında ipoteka kreditlərinin maliyyələşdirilməsi mexanizmini yaratmaq məqsədilə **qərara alıram:**

1. «Azərbaycan Respublikasının Milli Bankı nəzdində Azərbaycan İpoteka Fondu haqqında Əsasnamə» təsdiq edilsin (əlavə olunur).

2. «Azərbaycan Respublikasının Milli Bankı nəzdində Azərbaycan İpoteka Fondunun vəsaiti hesabına ipoteka kreditlərinin verilməsi Qaydaları» təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Milli Bankı:

3.1. Azərbaycan Respublikasının Milli Bankı nəzdində Azərbaycan İpoteka Fondunun strukturunu və ştat cədvəlini 15 gün müddətində təsdiq etsin;

3.2. Azərbaycan Respublikasının Milli Bankı nəzdində Azərbaycan İpoteka Fondunun səhmdar cəmiyyətinə çevrilməsi və özəlləşdirilməsi barədə təkliflərini 2006-cı ilin sonunadək Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. öz səlahiyyətləri daxilində bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, 2005-ci il dövlət büdcəsində ipoteka kreditlərinin maliyyələşdirilməsi üçün nəzərdə tutulmuş vəsaiti Azərbaycan Respublikasının Milli Bankı nəzdində Azərbaycan İpoteka Fondunun hesabına köçürülməsini təmin etsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti 1 ay müddətində:

5.1. ipoteka kreditləri üzrə dövlət güzəştlərinin ayrılması mexanizmini müəyyən etsin və bu güzəştlərdən istifadə qaydalarını təsdiq etsin;

5.2. aidiyyəti dövlət orqanları ilə birlikdə ipoteka kreditləri üzrə dövlət güzəştlərindən istifadə etmək hüququ olan sosial kateqoriyaları müəyyən etsin;

5.3. ipoteka kreditləri üzrə dövlət güzəştlərinin ayrılması üçün tələb olunan vəsaitlərin mənbələrini müəyyən etsin;

5.4. öz səlahiyyətləri daxilində bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Bu fərman dərc olunduğu gündən qüvvəyə minir.

*Azərbaycan Respublikasının Prezidenti*

*İlham ƏLİYEV*

*Bakı şəhəri, 22 dekabr 2005-ci il*

*№ 339*

*«Azərbaycan» qəzetində dərc edilmişdir (23 dekabr 2005-ci il, № 297) («VES Consultancy» LLC).*

*«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (12 dekabr 2005-ci il, № 12, maddə 1108) («VES Consultancy» LLC).*

*23 yanvar 2007-ci il tarixli, 515 nömrəli Fərmana əsasən dəyişikliklərlə («VES Consultancy» LLC).*

---